# HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# PUBLİK HÜQUQİ ŞƏXSİ

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Konsolidə Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**
**31 dekabr 2024-cü il tarixində bitən il üzrə**

**“Professional Financial Experts”**
**Məhdud Məsuliyyətli Cəmiyyəti**

**"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ-nin (VOEN: 1307742691) 01.01.2024-cü ildən 31.12.2024-cü ilədək olan dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi**

**BAKI – 2025**

*“ Professional Financial Experts” MMC*

*Vöen: 1007450831*

***Azərbaycan Respubliksının Auditorlar Palatası tərəfindən***

***Auditə İcazə № AT/ 254 – Verilmə tarixi 26.09.2022***

*Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəs, sıra3 ev23A*

*Telefon: İş:(012) 5696559; mobil: (051) 2517731*

*E-mail:rashad.hasanov23@gmail.com*

№ gSvPEIlUcm **“19” iyun 2025-ci il**

**“HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ”**

**PUBLİK HÜQUQİ ŞƏXSİNİN RƏHBƏRLİYİNƏ**

**"HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ" PHŞ -nin (VOEN: 1307742691) 01.01.2024-cü ildən 31.12.2024-cü ilədək olan dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə**

# MÜSBƏT RƏY

Biz, "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ-nin (bundan sonra Mərkəz) 01.01.2024-cü ildən 31.12.2024-cü ilədək olan dövrün maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişiklik hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Mərkəzin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

## Rəyin bildirilməsi üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət dairələrimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən konsolidə edilmiş maliyyə hesabatlarının auditinə aid olan etik

tələblərə uyğun olaraq Mərkəzdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdi.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə müəssisənin maliyyə göstəriciləri üzrə aparılmış auditin ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər konsolidə edilmiş maliyyə hesabatlarının auditi baxımından və rəyimizin formalaşmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Rəhbərliyin və auditini apardığımız iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə , dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Mərkəzi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı , yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Mərkəzin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər sahibkar subyektinin xüsusi təyinatlı bölmələrinə nəzarətə görə məsuliyyət daşıyır.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti**

Mərkəzin audit yoxlamasının aparılmasında məqsədimiz, konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**İcraçı:**

**"Professional Financial Experts"**
**Məhdud Məsuliyyətli Cəmiyyəti (İCAZƏ-AT/254 26 Sentyabr 2022-ci il)**
**direktor-auditoru: Həsənov Rəşad Novruz oğlu**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti PROFESSIONAL FINANCIAL EXPERTS Limited Liability Company Azerbaijan Republic

**19 iyun 2025-ci il**

# KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

31.12.2024-cü il tarixə

VÖEN: 1307742691

Mühasibat uçotu subyektinin adı: **"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ**

Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz plaza

AZN

| | | | Hesabat dövrü üzrə 31.12.2024 | Əvvəlki dövr üzrə 31.12.2023 |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| | 1 | **Uzunmüddətli Aktivlər** | | |
| | | Qeyri-maddi aktivlər | 360 | |
| | | Torpaq, tikili və avadanlıqlar | 391 357 | 360 390 |
| | | Biloloji aktivlər | 2 017 | 2 017 |
| | | Uzunmüddətli debitor borclar | | |
| | | Sair uzunmüddətli aktivləri | 72 063 | 76 488 |
| | | **Cəmi Uzunmüddətli Aktivlər** | **465 796** | **438 895** |
| | 2 | **Qısamüddətli akivlər** | | |
| | | Ehtiyatlar | 50 535 | 32 869 |
| | | Qısamüddətli debitor borcları | 13 000 | |
| | | Pul vəsaitləri və onların ekvivalentləri | 238 772 | 278 388 |
| | | Sair qısamüddətli aktivlər | 4 337 | 87 152 |
| | | **Cəmi Qısamüddətli akivlər** | **306 645** | **398 409** |
| **Cəmi** | | **Aktivlər** | **772 441** | **837 304** |
| **Kapital və Öhdəliklər** | | | | |
| | 3 | **Kapital** | | |
| | | Nizamnamə kapitalı | 150 000 | 150 000 |
| | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 322 129 | 303 260 |
| | | Kapital ehtiyatları | 225 870 | 115 516 |
| | | **Cəmi Kapital** | **697 999** | **568 776** |
| | 4 | **Uzunmüddətli Öhdəliklər** | | |
| | | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | |
| | | Uzunmüddətli kreditor borcları | | |
| | | Sair uzunmüddətli öhdəliklər | | |
| | | **Cəmi Uzunmüddətli Öhdəliklər** | **0** | **0** |
| | 5 | **Qısamüddətli öhdəliklər** | | |
| | | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 539 | 25 270 |
| | | Qısamüddətli kreditor borcları | 1 760 | 2 036 |
| | | Sair qısamüddətli öhdəliklər | 72 142 | 241 223 |
| | | **Cəmi Qısamüddətli Öhdəliklər** | **74 441** | **268 529** |
| | | **Cəmi Öhdəliklər** | **74 441** | **268 529** |
| **Cəmi** | | **Kapital və Öhdəliklər** | **772 441** | **837 304** |

**Samir Mahmudov**
**İcraçı direktor**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**Arzu Namazova**
**Maliyyə meneceri**

# KONSOLİDƏ EDİLMİŞ MƏCMU MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

31.12.2024-cü il tarixə

VÖEN: 1307742691

Mühasibat uçotu subyektinin adı: **"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ**

AZN

| | Hesabat dövrü üzrə 01.01.2024-31.12.2024 | Əvvəlki dövr üzrə 01.01.2023-31.12.2023 |
|---|---|---|
| *Gəlirlər* | | |
| Əsas əməliyyat gəliri | 311 099 | 124 300 |
| Sair əməliyyat gəlirləri | 3 664 911 | 3 529 214 |
| **Cəmi əməliyyat gəlirləri** | **3 976 010** | **3 653 514** |
| *Xərclər* | | |
| Ümumi, inzibati xərclər | -3 830 084 | -3 335 635 |
| Sair əməliyyat xərcləri | | -31 124 |
| **Cəmi əməliyyat xərcləri** | **-3 830 084** | **-3 366 759** |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **145 927** | **286 755** |
| **Mənfəət Vergisi** | **-16 704** | **-24 860** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **129 223** | **261 895** |

**Samir Mahmudov**
**İcraçı direktor**

**Arzu Namazova**
**Maliyyə meneceri**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

## KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

31.12.2024-cü il tarixə

VÖEN: 1307742691

Mühasibat uçotu subyektinin adı: **"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ**

Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz plaza

AZN

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Böldürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|
| **01.01.2023-cü il tarixinə qalıq** | 150 000 | 132 538 | 41 365 | 323 903 |
| **Hesabat dövründə silinmişdir** | | -17 022 | | -17 022 |
| **Hesabat dövründə daxil olmuşdur** | | | | 0 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | | 261 895 | 261 895 |
| **31.12.2023-cü il tarixinə qalıq** | 150 000 | 115 516 | 303 260 | 568 776 |
| **01.01.2024-cü il tarixinə qalıq** | 150 000 | 115 516 | 303 260 | 568 776 |
| **Hesabat dövründə silinmişdir** | | 110 354 | | |
| **Hesabat dövründə daxil olmuşdur** | | | -110 354 | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | | 129 223 | 129 223 |
| **31.12.2024-cü il tarixinə qalıq** | 150 000 | 225 870,00 | 322 128,35 | 697 998 |

**Samir Mahmudov**
**İcraçı direktor**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

**Arzu Namazova**
**Maliyyə meneceri**

# KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

31.12.2024-cü il tarixə

VÖEN: 1307742691

Mühasibat uçotu subyektinin adı: **"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" PHŞ**

Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz plaza

AZN

| | Hesabat dövrü üzrə 01.01.2024-31.12.2024 | Əvvəlki dövr üzrə 01.01.2023-31.12.2023 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 298 099 | 124 300 |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | |
| Digər gəlirlərdən daxilolmalar | | 9 401 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | **298 099** | **133 701** |
| Mallar və xidmətlərə görə xaricolmalar | -345 984 | -367 016 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | -3 425 284 | -3 013 952 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | -43 505 | |
| Digər ödənişlərə görə xaricolmalar | | -9 401 |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | -3 814 772 | **-3 390 369** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti artması** | **-3 516 673** | **-3 256 668** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | -18 774 | -164 944 |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | **-18 774** | **-164 944** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | 3 649 920 | 3 699 999 |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | -154 088 | -1 360 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **3 495 832** | **3 698 639** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **-39 615** | **277 028** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə qalıq** | **278 388** | **1 360** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | **-39 615** | **277 028** |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalıq** | **238 772** | **278 388** |

**Samir Mahmudov**
**İcraçı direktor**

**Arzu Namazova**
**Maliyyə meneceri**

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ
HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ
PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

## “HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ” PHŞ

## UÇOT SİYASƏTİ VƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

---

### MƏRKƏZ HAQQINDA MƏLUMAT

“Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi” PHŞ (bundan sonra Mərkəz) İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 24 may 2022-ci il tarixində 1307742691 nömrə ilə dövlət qeydiyyatına alınmışdır. Mərkəzin nizamnamə kapitalının miqdarı 100 000 (yüz min) manat məbləğindədir. Mərkəzin nizamnamə kapitalında mayaların 100%-i Azərbaycan Respublikasına məxsusdur.

Mərkəzin əsas fəaliyyəti normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli dövlət proqramlarının layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmək, Hüquqi boşluqların və qanunvericilikdə kolliziyaların aşkar edilməsi və aradan qaldırılması üçün qanunvericiliyin inkişafında və təkmilləşdirilməsində iştirak etmək, normayaratma fəaliyyətinin effektivliyinin artırılması məqsədilə mövcud normativ hüquqi bazanın monitorinqinin aparılmasında iştirak etmək, normativ hüquqi tənzimlənmənin təsirinin qiymətləndirilməsinin aparılmasında iştirak etmək, Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə və ya dövlət orqanlarının (qurumlarının) sifarişi əsasında hüquqi islahatlar aparılmasına dair təkliflər vermək, Hüquqi maarifləndirmə sahəsində tədbirlər görmək, Mərkəzin nizamnaməsi ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərməkdən ibarətdir.

Mərkəzin təsisçisi: Azərbaycan Respublikası 100%.

01.01.2024-31.12.2024-cü il hesabat dövründə “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi” PHŞ-nin maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

İcraçı direktor Samir Mahmudov;

Maliyyə meneceri Arzu Namazova

Mərkəzin hüquqi ünvanı aşağıdakı kimidir:

AZ1143, Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid prospekti ev 125A.

Mərkəzin hüquqi ünvanı aşağıdakı kimidir:

AZ1022, Bakı şəhəri Mərdanov qardaşları küçəsi ev 117C.

## TƏQDİMATIN ƏSASI

Mərkəz mühasibat yazılışlarını Azərbaycanın mühasibat uçotu qaydaları əsasında aparır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

## UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq PHŞ-nin konsolidə edilmiş maliyyə hesabatlarında tətbiq edilmişdir.

## UÇOT METODU

Mərkəz mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu konsolidə edilmiş maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) üzrə tərtib edilmişdir. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəziaktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu konsolidə edilmiş maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

Konsolidə edilmiş maliyyə hesabatları mühasibat uçotu subyektinin fəaliyyətinin davam etməsi və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalına əsaslanaraq hazırlanıb.

## MHBS-a ƏSASLANAN PRİNSİPLƏR

Mühasibat uçotunun aparılması zamanı MHBS-a əsaslanan prinsiplərə, maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri və maliyyə hesabatları elementlərinin qiymətləndirmə metodlarına üstünlük verilir.

Mühasibat uçotu subyektləri tərəfindən mühasibat uçotu hesablama metodu əsasında aparılır və ona uyğun olaraq konsolidə edilmiş maliyyə hesabatları tərtib edilir. Bu metoda əsasən əməliyyatların və digər hadisələrin təsiri onların baş verdiyi (pul vəsaitləri və ya onların ekvivalentlərinin qəbul edildiyi və ya ödənildiyi vaxt deyil) zaman tanınır və uçot registrlərində qeyd edilir.

Maliyyə hesabatları mühasibat uçotu subyektinin fəaliyyətinin davam etməsi və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalına əsaslanaraq hazırlanır.

MHBS-nin yoxluğunda prinsiplərin əsasında qərar vermək olar – fundamental keyfiyyət xüsusiyyətləri - 1. Uyğunluq (istifadəçilərin qərar vermələrinə təsir edə bilən məlumat (praqnozverici və ya təsdiqedici) məlumatın münasibliyi onun mahiyyəti və əhəmiyyətliliyindən asılıdır. 2. Düzgün təqdimat (təqdim etmək istədiyi məlumatı düzgün formada təqdim edə bilmək) 2.1. Mahiyyətin formadan üstünlüyü 2.2. Tamlıq 2.3. Təhrifdən uzaq 2.4. Neytrallıq (qərəzli olmamaq). Qüvvətləndirici keyfiyyət xüsusiyyətləri – 1. Müqayisəlilik (təqdim olunan müqayisə edilə bilən olmalıdır). 2. Anlaşıqlılıq 3. Vaxtında təqdimat 4. Təsdiq edilə bilən (ilkin uçot sənədləri və ya etibarlı hesablama). Mühasibat uçotunun prinsipləri – 1. Ardıcıllıq (sabitlik) (Müəssisənin uçot siyasəti yalnız yeni standart tələb edərsə və ya uçot siyasətinin dəyişməsi daha ədalətli təqdimata gətirib çıxardacaqsa) 2. Əhəmiyyətlilik – məlumatın buraxılması və məlumatın təhrif edilməsi (istifadəçilərin qərarverməsinə təsir göstərə bilərsə) əhəmiyyətlilik buraxılmış səhvin onu əhatə edən şəraitlərdə qiymətləndirilməsi zamanı onun həcmi və xarakterindən asılıdır – Böyüklüyünə görə (məbləğinə görə) * Məlumatın məbləği > vergidən əvvəlki mənfəət x 3-5%, * Məlumatın məbləği > gəlir x 0.5-1%, Məlumatın məbləği > Cəmi aktivlər x 1-2%. 3. Ədalətli təqdimat (təhrifsiz, qərəzsiz məlumat ədalətli təqdim olunmuş məlumat sayılır) 4. Ehtiyyatlılıq (heç bir hesabat maddəsi olduğundan daha çox və ya daha az göstərilə bilməz) 5. Uzlaşma (gəlirlərin qazanılması üçün çəkilən xərclər gəlirlərin tanındığı zaman tanınmalıdır. Gəlirlərlə xərclər uzlaşdırılmalıdır).

Mühasibat uçotu subyektinin fəaliyyətində müəyyən sabitlik ehtimal olunduqda, onun uzunmüddətli aktivləri amortizasiya edilir. Əgər mühasibat uçotu subyektinin ləğv olunması labüddürsə, aktivlər qısamüddətli (dövriyyə) və uzunmüddətli (dövriyyədənkənar) kimi təsnifləşdirilmir. Bu zaman, bütün aktivlər ləğv olunması gözlənilən qısamüddətli aktivlər hesab olunur. Öhdəliklər isə, maliyyə hesabatlarının istifadəçiləri üçün bu öhdəliklərin kreditorlara ödənişlər prioritetləri əsasında təsnifləşdirilməsi, onların ənənəvi olaraq, qısamüddətli və uzunmüddətli öhdəliklər kimi təsnifləşdirilməsindən daha əhəmiyyətli hesab edilir.

## ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan konsolidə edilmiş maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan manatıdır ("AZN")

## PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.

Mərkəz bank əməliyyatlarını Azərbaycan manatı ilə həyata keçirir.

Mərkəzin bank rekvizitləri aşağıdakı kimidir:

- hesablaşma hesabı - AZ81IBAZ38090019443021747216
- müxbir hesabı - AZ03NABZ01350100000000002944
- bankın kodu - 805562
- bankın VÖEN-i - 9900003611
- S.W.I.F.T. BİK - IBAZAZ2X

PHŞ üzrə pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti aşağıdakı kimidir:

| **Pul vəsaitləri** | **31.12.2024** |
|---|---|
| Bank hesabında olan pul vəsaitləri | 238 772 |
| Kassada nağd pul vəsaitləri | |
| **CƏMİ** | **238 772** |

## TORPAQ, TİKİLİ, AVADANLIQ VƏ AMORTİZASİYA

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq (TTA) obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. TTA-lar hesabdan silindikdə və onların davamlı istifadəsi artıq heç bir iqtisadi səmərə gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. "İlkin dəyər" PHŞ-nin tarixən bu aktivi əldə etmək üçün xərclədiyi pul vəsaitidir. TTA-nın istifadəyə hazır olanadək yaranan bütün normal xərclər ilkin dəyərə daxil edilməlidir ("ilkin dəyər modeli"). Torpaq üçün amortizasiya hesablanmır. Torpaq istisna olmaqla TTA-ların amortizasiyası azalan qalıq metodu ilə aparılır və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-12 nömrəli 24 dekabr 2012-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat" da qeyd olunan normalar üzrə hesablanır.

Qalan bütün TTA-lar ilkin dəyərdən amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr PHŞ-nə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün xərcinə silinir

PHŞ üzrə əsas vəsaitlərin hərəkəti aşağıdakı kimidir:

| | Maşın, avadanlıqlar | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Kitabxana fondu | Cəmi |
|---|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə qalıq dəyəri** | **128 043** | **162 112** | **70 236** | **76 488** | **436 878** |
| Daxilolmalar | 70 807 | | | | **70 807** |
| Xaricolmalar | 3 226 | | | 4 424 | **7 650** |
| Amortizasiya hesablamaları | 15 487 | 12 858 | 8 270 | | **36 615** |
| **31 dekabr 2024-cü il tarixə qalıq dəyəri** | **180 137** | **149 254** | **61 966** | **72 064** | **463 420** |

## QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. PHŞ ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli").

Qeyri-maddi aktivin uçotu onun faydalı istifadə müddətinə əsaslanır. Faydalı istifadə müddəti məhdud olan qeyri-maddi aktiv amortizasiya edilir, faydalı istifadə müddəti qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya olunmur. Məhdud istismar müddətli qeyri-maddi aktivin amortizasiya məbləği müntəzəm əsasda onun faydalı istifadə müddəti üzrə paylaşdırılır. Müəssisədə qeyri-maddi aktivin amortizasiyası Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Q-12 nömrəli 24 dekabr 2012-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara və qeyri-maddi aktivlərə tətbiq edilən amortizasiya normaları barədə Təlimat" da qeyd olunan normalar tətbiq edilməklə hesablanmışdır.

PHŞ üzrə qeyri-maddi aktivlərin hərəkəti aşağıdakı kimidir:

| | |
|---|---|
| **1 yanvar 2024 tarixə balans dəyəri** | **0** |
| Daxilolmalar | 360 |
| Xaricolmalar | |
| Amortizasiya hesablamaları | |
| **31 dekabr 2024 tarixə balans dəyəri** | **360** |

## EHTİYATLAR

Ehtiyatların maya dəyəri satınalmaların qiyməti üzrə hər bir ehtiyatın mədaxil olunduğu qiymətlə (ilkin dəyərlə) hesablanır. Maya dəyəri bərabərdir dövrün əvvəlinə olan material ehtiyatları üstəgəl satınalmalar çıxaq dövrün sonuna material ehtiyatları. Mal-material ehtiyatları FİFO (ilk mədaxil ilk məxaric) metodu tətbiq edilməklə aparılır.

Mal-material və digər aktivlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

**Ehtiyatların hərəkəti aşağıdakı kimidir:**

| | 31.12.2024 | 01.01.2024 |
|---|---|---|
| Ehtiyatlar | 50 535 | 32 869 |

## SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

Sair qısamüddətli aktivlər qabaqcadan ödənilmiş avanslardan və alınmış qiymətlilər və xidmətlər üzrə əvəzləşdirilən əlavə dəyər vergisindən ibarətdir.

Sair qısamüddətli aktivlər aşağıdakı kimidir:

| | Qabaqcadan ödənilmiş avanslar | Təhtəlhesab məbləğlər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixə qalıq** | **87 144** | **8** | **87 152** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **4 337** | **0** | **4 337** |

## SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

Sair qısamüddətli öhdəliklər aşağıdakı kimidir:

| | Qısamüddətli məqsədli maliyyələşmələr | Digər qısamüddətli öhdəliklər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixə qalıq** | **129 583** | **111 640** | **241 223** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **53 897** | **18 245** | **72 142** |

## İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR VƏ AİDİYYATI AYIRMALAR

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Mərkəz əmək haqqı fondundan məcburi sosial ayırmalar hesablayır və işçilərin əmək haqqlarından məcburi sosial sığorta haqları tutur və köçürür.

Mərkəzin 2024-cü ildə əmək haqqı fondu 3 420 179 manat olmuşdur.

## GƏLİR VƏ XƏRCLƏRİN TƏHLİLİ

**Gəlirlər aşağıdakı kimidir:**

| | **2024** |
|---|---|
| Əsas əməliyyat gəliri | 311 099 |
| Sair əməliyyat gəlirləri | 3 664 911 |
| **Cəmi** | **3 976 010** |

**Xərclər aşağıdakı kimidir:**

| | **2024** |
|---|---|
| Əmək haqqı və sosial ayırmalar | 3 420 179 |
| Amortizasiya xərci | 36 616 |
| Dəftərxana və təsərrüfat xərcləri | 804 |
| Yanacaq və sürtkü materiallarının alınması | 5 412 |
| Digər malların alınması | 250 |
| Təmir xərci | 1 843 |
| Rabitə xərci | 29 703 |
| İcarə xərci | 202 377 |
| Proqram təminatlarına və məlumat bazalarına xidmət haqqı | 21 528 |
| Xammal və material xərcləri | 8 293 |
| Ezamiyyə xərci | 15 332 |
| Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqqı | 110 |
| İstehlakyönümlü xidmətlər | 20 275 |
| Digər iş xidmətlərlə bağlı xərclər | 34 265 |
| Elektrik enerjisi xərci | 3 676 |
| Su xərci | 1 800 |
| Bank xərci | 15 040 |
| Sair xərclər | 750 |
| Sığorta xərcləri | 92 |
| Müavinət | 7 315 |
| Əvəzsiz verilmiş aktiv | 4 424 |
| **Cəmi** | **3 830 084** |

## HESABLAŞMA VƏ KREDİT ƏMƏLİYYATI

Mərkəz bank kreditləri almamışdır. Hesablaşmalar Müəssisələrlə bank hesablaşmaları ilə aparılmışdır. Debitor borclar alıcılar və sifarişçilərlə hesablaşmadan yaranmış, kreditor borclar isə mal göndərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan yaranmışdır.

Mərkəzin debitorlarla və kreditorlarla hesablaşmaları aşağıdakı kimidir:

**Qısamüddətli debitor borclar aşağıdakı kimidir:**

| | **31.12.2024** | **01.01.2024** |
|---|---|---|
| Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları | 13 000 | 0 |

**Qısamüddətli kreditor borclar aşağıdakı kimidir:**

| | **31.12.2024** | **01.01.2024** |
|---|---|---|
| Malsatanlara qısamüddətli kreditor borcları | 1 760 | 861 |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | | 1 175 |

## VERGİLƏR

PHŞ Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq muzdlu və muzdlu olmayan gəlirlərdən gəlir vergisi, mənfəət vergisi, ÖMV, vergi qanunvericiliyinin tələblərinə müvafiq olaraq dövlət rüsumlarının ödəyicisidir.

İcraçı direktor Samir Mahmudov

AZƏRBAYCAN RESPUBLİKASI PUBLİK HÜQUQİ ŞƏXSİ HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ PUBLIC LEGAL ENTITY THE REPUBLIC OF AZERBAIJAN

Maliyyə meneceri Arzu Namazova